*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 484-489*

https://doi.org/10.62837/2025.6.484

**UOT 82-3.512.162**
**GÜNEL FAZIL QIZI ZEYNALLI**
***Sumqayıt Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru***
**gunel185@gmail.com**
**Orcid ID 0000-0003-2490-7320**

# FƏRMAN KƏRİMZADƏNİN ROMANLARINDA TARİXİ ŞƏXSİYYƏT VƏ BƏDİİLİK

**Xülasə**

*Açar sözlər: yazıçı, roman, tarixi roman, bədiilik, şəxsiyyət konsepsiyası, vətənpərvərlik*

Daha çox tarixi romanlar müəllifi kimi məşhur olan Fərman Kərimzadə “Xudafərin körpüsü”, “Çaldıran döyüşü”, “Təbriz namusu” kimi əhəmiyyətli tarixi romanlarında milli tariximizə işıq tutaraq oxucuda maraq və qürur hissi oyadır. “Xudafərin körpüsü” və “Çaldıran döyüşü” romanları Ağqoyunlularla Səfəvilər hakimiyyətinin qarşı-qarşıya gəldiyi, birincilərin ikincilərlə əvəzləndiyi dövrün, Şah İsmayıl Xətainin bir şair, sərkərdə və bir dövlət xadimi kimi yetişib formalaşdığı ictimai-siyasi tarixi şəraitin bədii salnaməsidir. “Təbriz namusu” romanında isə müəllif XIII-XIV əsrlərin keşməkeşli tarixinə parlaq güzgü tutaraq qaranlıq məqamlara aydınlıq gətirməyə çalışır. Bu romanlarda yazıçı Şah İsmayıl Xətai, Sara Xatun, Uzun Həsən, Çingiz xan, Şeyx Səfiəddin, Fəzlullah Rəşidəddin, Əbu Səid, Şeyx Heydər, Fərrux Yasar, Sultan Səlim və s. kimi tarixi şəxsiyyətlərin ictima-siyasi tarixi fonda bədii obrazını yarada bilmişdir.

**Gunel Zeynalli**

# HISTORICAL PERSONALITY AND ARTISTICITY IN FARMAN KARIMSADE'S NOVELS

**Summary**

*Keywords: writer, novel, historical novel, artistry, concept of identity, patriotism*

Farman Karimzadeh, who is more famous as the author of historical novels, sheds light on our national history in his important historical novels such as “Khudaferin Bridge”, “Battle of Chaldiran”, and “The honor of Tabriz”, which arouses a sense of interest and pride in the reader. The novels “Khudaferin Bridge” and “Battle of Chaldiran” are a literary chronicle of the socio-political historical conditions of the period when the Aghqoyunlu and Safavid rule came into conflict, when the former were replaced by the latter, and when Shah Ismail Khatai grew and formed as a poet, commander, and statesman. In the novel “The honor of Tabriz”, the

author tries to shed light on the dark moments by holding a bright mirror to the turbulent history of the 13th-14th centuries.

**Гюнель Зейналлы**

## ИСТОРИЧЕСКАЯ ЛИЧНОСТЬ И ХУДОЖЕСТВЕННОСТЬ В РОМАНАХ ФАРМАНА КАРИМЗАДЕ

### Резюме

*Ключевые слова: писатель, роман, исторический роман, художественность, концепция идентичности, патриотизм*

Фарман Керимзаде, который более известен как автор исторических романов, проливает свет на нашу национальную историю в своих важных исторических романах, таких как «Худаферинский мост», «Битва при Чалдиране» и «Честь Тебриза», что вызывает у читателя чувство интереса и гордости. Романы «Худаферинский мост» и «Битва при Чалдиране» представляют собой литературную хронику социально-политических исторических условий периода, когда правление Аггоюнлу и Сефевидов вступило в конфликт, когда первые были заменены вторыми, и когда шах Исмаил Хатаи вырос и сформировался как поэт, полководец и государственный деятель. В романе «Честь Тебриза» автор пытается пролить свет на темные моменты, держа яркое зеркало в бурной истории XIII-XIV веков.

**Giriş.** Bədii ədəbiyyat tarixi yaddaşın mühafizəçisi olmaqla yanaşı, həm də tarixi dünyagörüşünün formalaşmasında mühüm rol oynayan amillərdən biridir. Tarixi mövzulara müraciət edən, real tarixi şəxsiyyətləri əsas və ya ikinci dərəcəli personajlar kimi əks etdirən bədii ədəbiyyat rəsmi tarix elmi ilə nəinki rəqabət aparır, hətta onu cəsarətlə tamamlayır, müxtəlif dəqiqlik dərəcələri ilə keçmiş hadisələri oxucuların təsəvvüründə canlandırır. Bilmək lazımdır ki, sənət həqiqəti həyat həqiqətindən fərqli olduğu kimi, bədii həqiqət də həyat həqiqətindən fərqlənir. Amma bədii həqiqət reallıq əsasında yaradılır, burada faktlar fundamental rol oynayır. Tarixi şəxsiyyətin bədii obrazını, başlıca olaraq tarixi təhrif etmədən bir qəhrəman kimi yaratmaq sənətkarın qarşısında həll edilməsi çətin və məsuliyyətli olan işlərdən biridir. Tarixi romanlar ustası Fərman Kərimzadə tarixə sadəcə fakt kimi yox, bədii təfəkkür prizmasından yanaşaraq, onu canlı və oxunaqlı bir formada təqdim etmişdir. Tarixilik, millilik, xəlqilik prinsipləri əsasında yazdığı "Çaldıran döyüşü", "Xudafərin körpüsü" və "Təbriz namusu" kimi romanları tarixi mövzuda yazılmış ölməz sənət nümunələridir. Onu yazıçı kimi şöhrətləndirən məhz elə tarixi romanları olmuşdur. 80-ci illərin əvvəllərində müəllif Şah İsmayıl Xətainin şərəfli ömür yolunu və ictimi-siyasi fəaliyyətini əhatə edən "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanlarını qələmə alır. Şah İsmayıl Xətaiyə ardıcıl şəkildə bir-birinin davamı olaraq romanların həsr edilməsinin səbəbi bəlli idi: Xətai Azərbaycan tarixinin şanlı qəhrəmanlıq səhifələrini yazsa da, Azərbaycan ədəbiyyatında onun

bədii obrazı yaradılmamışdı. F.Kərimzadənin bir-birinin davamı olan bu romanları Ş.İ.Xətainin şəxsiyyətinə olan marağın və sonsuz ehtiramın bədii ifadəsidir. Romanda yaradılmış Şeyx Heydər, Ağqoyunlu Sultan Yaqub, Uzun Həsən, Uzun Həsənin anası Sara Xatun, Əbu Səid, Aləmşahbəyim, Hüseyn Lələ bəy və s. tarixi şəxsiyyətlərdir və müəllif hər birinin taleyinə tarixin qarışıq hadisələri fonunda işıq salır. Sara Xatun Şərqin ilk diplomat qadını olub. Romanda öz müdrikliyi, mərdliyi və sədaqəti ilə seçilir. Olduqca ağıllı, tədbirli olan Sara Xatun Ağqoyunlu dövlətinin idarə olunmasında, xarici ölkələrlə diplomatik əlaqələrin genişlənməsində yaxından iştirak etmiş, oğlu Uzun Həsənə dayaq duraraq çətin məqamlarda təmkinli davranmaq və düzgün qərar vermək istiqamətində yardım göstərmişdir.

Tarixi poetika və tarixi həqiqətdən bəhs edərkən tarixi biliyin etibarlılığı məsələsinin insanları hər zaman narahat etdiyinə diqqət yetirməmək mümkün deyil. Hətta belə bir fikir formalaşır ki, keçmişin dəqiq mənzərəsini təqdim etmək mümkündürmü? Tarixi araşdırmalarla məşğul olan alimlər hələ də bu barədə düşünürlər. Onların fikirləri bir məsələdə ortaqdır- tarix heç bir elm kimi digər elmlərlə müqayisədə bir az artıq saxtalaşdırılmaya məruz qala bilər. Bu vəziyyətdə tarixin və ədəbiyyatın ümumi genetik köklərə - fantaziya və sonsuz xəyal gücünə malik olması mühüm rol oynayır. Fərman Kərimzadə tarixi şəxsiyyətləri təsvir edərkən, onların həyat və fəaliyyətini qələmə alarkən dəqiq tarixi faktları əsas götürür və yazıçı təxəyyülünün bədii imkanları həqiqətdə olanı inkar etmir və yaxud uydurma don geyindirmir. “Xudafərin körpüsü” və “Çaldıran döyüşü” romanlarının mərkəzi obrazı Şah İsmayıldır. İsmayılın, düşüncələri, qayğıları, arzu və istəkləri Azərbaycan xalqının düşüncələri və istəkləridir. O, təhlükələr qarşısında büdrəmir, doğma vətəninin birliyi və bütövlüyü uğrunda, doğru bildiyi haqq işi uğrunda əzmlə, cəsarətlə mübarizəyə başlayır. Tarixdən bizə bəllidir ki, İsmayılın hakimiyyətə gəlişi məşəqqətli olub. Tarixi roman janrını xarakterizə edən cəhətlərdən biri təkcə tarixi personajların və ya keçmiş hadisələrin təsviri deyil, həm də yazıçının dövrün mənzərəsini bütün ziddiyyətləri ilə çatdırmaq bacarığıdır. Müəllif tarixi keçmişi təsvir edərkən adətən tarixi dövrdə müəyyən rol oynamış gerçək hadisələri əsas götürür. Müəllifi keçmiş hadisələri canlandırarkən bədii təxəyyül və fərziyyənin köməyinə müraciət edir. F.Kərimzadə yeni faktlar əsasında İsmayılın yaşadığı çətinliklərin bizim təsəvvür etdiyimizdən qat-qat artıq olduğunu göstərir. Sanki zaman özü İsmayılı bütün məngənələrdən qorumuş və böyük amalı reallaşdırmaq səlahiyyətini ona tapşırmışdır. Fərrux Yasar kimi dövlət xadimləri bir ölkəni, məmləkəti birləşdirmək deyil də, parçalamağı, qardaş qırğınları hesabına öz torpaqlarını genişləndirməyi, sərvətinə sərvət qatmağı düşünürdüsə, on üç yaşlı İsmayılın niyyəti Azərbaycan topraqlarını vahid dövlət ətrafında birləşdirmək idi. – “Bəs mənim doğulduğum, dilində danışdığım, şeir söylədiyim millət necə olub? O birdimi? Yox, o yox kimidir. Hələ ki tayfalardır. Ustaclıdı, qacardı, əfşardı, bəydillidi, nə bilim nə qədər dili bir, qanı bir tayfa var. Hələ ki, bir adımız da yoxdur.

Onların hamısı birləşib bir olmalıdır. O birliyin başlanğıcını bu gün qoyuram. Mən başlayıram. Bu Xudafərin körpüsündən, bu Araz çayından”. (4, 363)

Müəllif tarixi faktlara əsaslansa da, Şah İsmayılı hər şeydən öncə real insan kimi-hissləri, zəiflikləri və gücləri ilə təqdim edir. Şah İsmayıl yaxşı başa düşürdü ki, ölkə bir olmasa, onun gücündən, qüdrətindən, əzəmətindən danışmaq lüzumsuzdur. Bu tarixi vəzifənin məsuliyyətini dərindən dərk etdiyi üçün taxta oturmaqdan çəkinir. Düşünür ki, o, günlərini at belində döyüşlərdə keçirməli, böyük əqidə yolunda qılınc çalmalı, hər dəqiqə özünü fəda etməyə hazır olmalıdır. Onun üçün ən müqəddəs vəzifə babalarının, atasının şanlı yolunu davam etdirmək, eyni əqidəyə xidmət etmək idi. Yəni şeirlə qılıncı bir araya sığdırmalı idi. İsmayıl müdrik, tədbirli bir hökmdar kimi qurucusu olduğu Azərbaycanda elm, mədəniyyət və incəsənətin inkişafı yolunda mühüm tədbirlər həyata keçirir. Romanda diqqətçəkən məqamlardan biri də Şah İsmayılın sənət adamlarına rəğbəti, onları layiqli şəkildə qiymətləndirməsi, himayə etməsi, onlar üçün münbit şərait yaratmasıdır. O, Sultan Məhəmməd, Behzad, Fransisko kimi rəssam və nəqqaşları, Həbibi, Qurbani kimi el sənətkarlarını öz ətrafına toplayaraq onlara qayğı göstərir, onların düşmən əlinə keçməməsi üçün tədbirlər görür. “Çaldıran döyüşü” romanında ədəbiyyatımızda ilk dəfə olaraq Qurbaninin obrazı yaradılmışdır.

Bədii uydurma və fərziyyə tarixin elmi obyektiv təsvirinə zidd olmadan, faktlara əsaslanmalıdır. Onların əsas vəzifəsi tarixi faktların bədii təsviridir. Belə qənaətə gəlmək mümkündür ki, tarixi romanda müəllif sənədli sübutlara əsaslanaraq bədii reallıq yaradır. F.Kərimzadənin bu istiqamətdə yazdığı növbəti əsəri isə “Təbriz namusu” tarixi romanıdır. Müəllif əsas mənbə olaraq orta əsrlərdə fəaliyyət göstərən tarixçi Fəzlullah Rəşidəddinin "Tarixlər toplusu" ("Came ət-təvarix") əsərindən qaynaqlanmışdır. Bu əsərdə XIII-XIV əsrlərdə mövcud olan Azərbaycanda Elxanilərin hakimiyyəti dövrü təsvir olunur. F.Kərimzadə romanı sadəcə tarixi faktlar üzərində qurmur. O, bədii təxəyyüldən istifadə edərək obrazların daxili aləminə işıq salır. Milli qeyrət, xalq namusu, azadlıq uğrunda mübarizə romanın əsas ideyasıdır. Tarixi romanlara, xüsusilə fatehlik niyyətilə meydana atılan sərkərdələrin həyat yoluna xas olan başlar kəsmək, zülmlər etmək, evləri viranə qoymaq, kəndlər yandırmaq, insanları yurd-yuvalarından didərgin salmaq, qadınların namusuna təcavüz etmək və s. kimi qeyri-insani hərəkətlər bu romanını ana xəttini təşkil edir. Əslində “Təbriz namusu” əsərinin əsas məziyyətlərindən biri elə romanın öz adında ehtiva olunmuşdur: Azərbaycan qadınının ləyaqətini, mənəviyyatını torpaq, vətən kimi müqəddəsləşdirib təsvir etmək! Azərbaycan qadını onun romanlarında adilikdən, standard qəliblərdən çıxıb ağlı, zəkası, namusu, qeyrəti, mərdliyi ilə vətənin, torpağın rəmzinə çevrilir. Azərbaycan qadınının ləyaqət və namusunu dərin məhəbbətlə təsvir edən yazıçı haqlı olaraq, onların taleyini yurdun, vətənin taleyilə vəhdətdə önə çəkir və bütün roman boyu namus, vətən, torpaq, vəhdət harayını bizə

pıçıldayır. Elə monqol istilasına da Bağda xatun kimi qeyrət və mərdlik mücəssəməsi olan qadınların hünəri sayəsində zərbə endirilir.

Çingiz xan kimi fatehlərin istilaçı siyasəti xəttini davam etdirən monqollar yaxın Şərq ölkələrini, o cümlədən, Azərbaycanı, onun vilayətlərini istila etmək məqsədilə hərbi yürüşlər, səfərlər təşkil edirdilər. Başlar kəsmək, gözlər çıxartmaq, xalqları soyub-talamaq, görünməmiş dəhşətli cinayətləri törətmək bir çox tarixi romanlarda olduğu kimi, "Təbriz namusu" əsərində də geniş yer tutur. Monqol ağalığına qarşı Azərbaycan xalqının mübarizəsi xalqımızın öz azadlığı uğrunda apardığı milli-azadlıq hərəkatının mühüm bir mərhələsini təşkil edir. "Başı bəlalı vətənimizin dərdləri çoxdur. Allaha acıq getməsin, Azərbaycanı elə zəngin, elə gözəl yaradıb ki, hansı düşmən dişini itiləyirsə bura cumur. Nemətlərimizi yeyib doymaq bilmirlər. Altmış ildən çoxdur ki, Çingiz xan övladlarının tapdağı olduq, indi-indi özümüzə gəlirik. Xalq oyanmalıdır... Hamını qəflət yuxusuna veriblər. Qoy heç nədən xəbərləri olmasın, öz vətənində özgə kimi yaşasın, öz haqqına, öz malına sahib ola bilməsin...". (6, 56) Romanda Çingiz xanın dünyaya gəlməsi ilə bağlı mifik fakt təsvir olunur. Çingiz xan dünyaya gələrkən sağ əlini yumruq kimi sıxıb açmır. Şaman uşağa yaxınlaşaraq dua edir və onun barmaqlarını açmağa başlayır. Balaca igidin ovcunun içərisində qara ciyər parçası kimi qurumuş bir parça qan vardı. "Uşağın ovcu yaradımı? – Yox, böyük hökmdar. Tanrının nişanəsidir. Oğlun dünyaya ovcu dolu qanla gəlib. O, qanlı yolla da olsa, dünya hökmdarının taxt-tacına yetişəcək". (6, 42) Uşağın adını Çin dəmiri anlamını verən Teymurçin qoyurlar. İllər ötəcək, o böyüyüb hökmranlığı ələ alacaq, çox qanlar tökəcək və tarixə öz adını Çingiz xan deyə yazdıracaqdı. F.Kərimzadə orta əsrlərin böyük fatehi Çingiz xanın hərtərəfli bədii obrazını yaradaraq onun tarixi prototipini dolğun şəkildə təsvir etmişdir.

Elxanilər dönəmində sarayda müxtəlif vəzifələr icra etmiş sərkərdə, tarixi şəxsiyyət olan Əmir Çoban obrazı romanın mərkəzi fiqurlarından biridir. Əbu Səidin dövründə Əmir Çoban böyük nüfuza malik olmuş, düşmən qüvvələrə qarşı mübarizədə qətiyyət göstərmişdir. Əbu Səid 12 yaşında taxta çıxsa da, əslində dövlətin bütün idarəçilik işləri Əmir Çobanın məsuliyyətində olmuşdur. Müəllif onu xaqlının taleyinə biganə olmayan təəssübkeş, vətənpərvər bir tarixi şəxsiyyət, daxili çəkişmələr və ziddiyyətlər içində doğru qərarlar verən ağıllı bir sərkərdə kimi təsvir edir. Əmir Çoban insani dəyərlərə böyük önəm verir, tarixçi Xoca Fəzlullah Rəşidəddinə dərin hörmət bəsləyərək saray ziddiyyətləri içərisində hər zaman onu müdafiə etmişdir.

Çingiz xanın ordusuna, hücumlarına qarşı cəsarətlə vuruşan, yurdundan, torpağından ötrü ən çətin anlarda belə sədaqətindən dönməyən, hətta canının belə fəda etməyə hazır olan cəsur oğullardan biri Xocənd hakimi Teymur Məlik olmuşdur. O, ağıllı hərbi taktikalar işlədərək neçə-neçə monqol döyüşçüsünə ağır zərbələr endirmişdir. Çingiz xan göstəriş vermişdi ki, monqol döyüşçülərini oxla

öldürdüyünə görə, onu da oxla dəlik-deşik etməli, çayın sahilində yolun kənarında asmalıdırlar ki, gəlib gedənlərin hamısı görsün. Teymur Məlik vətəninin xarabazara çevrilməsinə, qadınların, qızların əsir alınmasına, öz vətəni üçün vuruşanların övladlarına qəhrəman kimi deyil də, düşmən kimi, xain kimi tanıdılmasına dözə bilmirdi. “Qorxu Mavəraünəhri və Turanı döndərib qul eləyib, müti eləyib. Bu qorxu onun qəlbindən min illərlə çıxmayacaq. O xalqları kim özünə ram etmək istəsə, ona baş əyəcək. Bəs hanı Turanın qüruru? Necə oldu onun mənliyi?”. (6, 168)

**Nəticə.** Tarixi hadisələrin və şəxsiyyətlərin bədii ədəbiyyatda qələmə alınması xalqın tarixi keçmişini, sınaqlarla dolu ziddiyyətli dönəmlərini müasir dövrə gətirməklə yenidən canlandırılmasına xidmət edir. Bədii əsərin müəllifinə təkcə təsvir olunan dövrün tarixi və məişət koloritini çatdırmaq deyil, həm də tarixi keçmişin ab-havasını real və həqiqətlə təsvir etmək lazımdır. Oxucu tarixi roman vasitəsilə xalqın çoxəsrlik tarixini, mənəvi-əxlaqi dəyərlərini öyrənir, bu günü və gələcəyi üçün istiqamətlər seçir. Ədəbiyyat bədii obrazlar vasitəsilə tarixi keçmişi, onun aydın və qaranlıq səhifələrini canlandırır, real şəxsiyyətlərin təsviri ilə müəllifin tarixdə insan konsepsiyasını əks etdirir. Müasir oxucuya isə onun yerini dərk etmək, tarixdəki rolunu müəyyən etmək üçün bu lazımdır. Yaradıcılığı ilə keçmişi gələcəyə qovuşdurmaq yazıçıdan istedadla yanaşı, həm də öz tarixinə dərindən hakim olmaq biliyi tələb edir. Bu yolda F.Kərimzadə qələmi ilə özünü təsdiq elədi. Onun romanlarının hər biri tariximizin, soyumuzun yaddaş salnaməsidir.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrədək. Red. Z.B.Bünyadov, Y.B.Yusifov. Bakı: Çıraq, 2012, 720 s.
2. Ədəbiyyatda şəxsiyyət konsepsiyası. Tərtibçi və red. A.A.Abdullazadə. Bakı: Elm, 2000, 216 s.
3. Əlişanoğlu T. Tarixlə belletrizmin arasında (F.Kərimzadənin «Təbriz namusu» romanı haqqında) - «Ədəbi tənqid» jurnalı, 1992-ci il № 1, s. 76-79
4. Kərimzadə F. Seçilmiş əsərləri. I cild. Bakı: Ağrıdağ, 2002, 390 s.
5. Kərimzadə F. Seçilmiş əsərləri. II cild. Bakı: Ağrıdağ, 2003, 328 s.
6. Kərimzadə F. Seçilmiş əsərləri. IV cild. Bakı: Ağrıdağ, 2005, 320 s.
7. Ramiz G. Çağdaş nəsrdə milli tarix konsepti. Monoqrafiya. Bakı: Ekoprint, 2019, 152 s.
8. Tarix və bədii həqiqət. //Azərbaycan jurnalı . 2016.- №4. s.153-168.
9. Tarixi şəxsiyyət Şah İsmayıl Xətai. [Mətn] /F.Qaraoğlu. //Bakı Xəbər .-2018.- 19-21 may.- s.15


**Rəyçi: əməkdar mədəniyyət işçisi, professor Rafiq Yusifoğlu**